**Qudsi Dursun oğlu Osmanov**

Təvəllüdü: 16 Fevral 1966-cı il

**Təhsili**

Leninqrad Su Nəqliyyatı Mühəndisləri İnstitutunun iqtisadiyyat fakültəsi (bakalavr),
Sankt-Peterburq Dövlət Universiteti, hüquq fakültəsi(bakalavr),
Sankt-Peterburq Dövlət Universiteti beynəlxalq münasibətlər fakültəsi (Siyasi Elmlər üzrə fəlsəfə doktoru, mövzu "Dünya siyasəti kontekstində XX əsrin sonu XXI əsrlərin əvvəllərində Azərbaycan-Rusiya münasibətləri")
Rusiya Federasiyasının XİN-in nəzdində Diplomatik Akademiya b/x iqtisadiyyat (magistr)

**Əmək fəaliyyəti**

1997-2004 Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburqda şəhərində Fəxri konsulu;
2004-2013 Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Baş konsulu;
2013-2016 Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyində, Səfirin müavini vəzifəsində çalışmışdır;
2016-2023 Azərbaycan Respublikasının Moldova Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri;
9 dekabr 2023-cü ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir
Fövqəladə və Səlahiyyətli Səfir Diplomatik rütbəsi var.

**İctimai fəaliyyəti və mükafatları**

SSRİ Hərbi Dəniz Donanmasının Baş Komandanı, donanma admiralı Vladimir Chernavin tərəfindən "Döyüş və siyasi təlimlərdə yüksək göstəricilərə görə" diplomu ilə təltif edilmişdir;

Görkəmli dövlət xadimi və diplomat A.M.Qorçakov adına gümüş medal, "Rusiya Donanmasının 300 iliyi", "Sankt-Peterburqun 300 illiyi" və "Sakit Okean Donanmasının 275 iliyi" münasibəti ilə medallarla təltif edilmişdir;

"Sankt-Peterburq ilə Azərbaycan Respublikası arasında ikitərəfli faydalı münasibətlərin inkişafına verdiyi şəxsi töhfələrinə görə" Sankt –Peterburqun qubernatoru Georgiy Poltavçenko tərəfindən fəxri diplomla təltif edilmişdir;

"Rusiya Federasiyası İstintaq Komitəsinə həvalə edilmiş məsələlərin həllində yardımlarına, Rusiya Federasiyası İstintaq Komitəsi ilə uzunmüddətli və səmərəli əməkdaşlığın inkişafına verdiyi tövhələrinə görə" Rusiya Federasiyası İstintaq Komitəsinin 02 aprel 2013-ci il tarixli əmri ilə medalla təltif edilmişdir;

Azərbaycan diplomatik xidmət orqanlarının 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə tətif edilmişdir.

Moldova Respublikasının Xarici İşlər və Avropaya İnteqrasiyası Nazirliyinin "Diplomatik xidmətə görə" II dərəcəli medalı (30 oktyabr 2023-cü il)

"Şərəf" ordeni (Moldova) (12 dekabr 2023)

Moldova Respublikası Daxili İşlər Nazirliyinin “Əməkdaşlığa görə” medalı (27 dekabr 2023-cü il)

Moldova Hökumətinin Fəxri Diplomu (28 dekabr 2023-cü il)

Xarici dillər - rus, ingilis

Evlidir, 3 uşaq atasıdır.